**Address:**
Azərbaycan Skautlar Assosiasiyası
507 – 513 Ismayil bay Qutqashinli
Baku, Azerbaijan AZ 1073

GSM: +994774517111
e-mail: Info@wsc2017.az
website: www.wsc2017.az

**Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransı işini yekunlaşdırdı**

Bakıda avqustun 14-dən 18-dək Bakı Konqress Mərkəzində keçirilən 41-ci Dünya Skaut Konfransı başa çatdı.

Dünya Skaut Hərəkatı Təşkilatı (DSHT) və Azərbaycan Skautlar Assosiyasiyasının (ASA) təşkilatçılığı ilə keçirilən bu beynəlxalq tədbir Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçirilib. 41-ci Dünya Skaut Konfransı çərçivsində skaut təşkilatlarının gələcək inkişafı, onların formalaşma strategiyası və fəaliyyəti, konstitusiyaya edilən dəyişikliklər, təşkilata yeni 9 üzvün seçilməsi mərasimi keçirilmişdir.

Konfrans çərçivəsində səsvermə nəticəsində qəbul olunmuş digər vacib qərarlar arasında 2023-cü ildə beynəlxalq skaut toplantısı – “Cambori”-nin Koreyada, həmçinin 2020-ci ildə 42-ci Dünya Skaut Konfransına və 14-cü Dünya Skaut Gənclər Forumu Misirdə keçiriləcəyi oldu.

Həmçinin konfrans çərçivəsində keçirilmiş iclasda Dünya Skaut Komitəsinə 12 yeni üzvlər seçildi, Azərbaycan Skautlar Assosiasiyasının prezidenti İlyas İsmayıllı da seçilən üzvlər sırasındadır. Qeyd edək ki, ilk dəfə olaraq Azərbaycan nümayəndəsi Dünya Skaut Hərəkatı Təşkilatının rəhbər orqanına daxil olub.

Dünya Skautlar Komitəsinin 2017-2020-ci ilərdə yeni sədri Böyük Britaniya nümayəndəsi Qreq Turpi seçilib. Sədrin müavinləri vəzifəsinə isə ABŞ nümayəndəsi Edvard Endryu Çapman və Qana nümayəndəsi Cemima Narti seçiliblər.

Qeyd etmək lazımdır ki, 13-cü Dünya Skaut Gənclər Forumu və 41-ci Dünya Skaut Konfransı, 161 ölkədən olan qonaqların iştirakı, miqyasına və iştirakçıların sayına görə, skautların Avrasiya bölgəsində keçirdikləri ən böyük, müsəlman ölkələri arasında isə ikinci tədbirdir.

Xatırladaq ki, 2000-ci ildən etibarən Dünya Skautlar Hərəkatı Təşkilatında Azərbaycanı, İlyas İsmayıllının rəhbərliyi altında Azərbaycan Skautlar Assosasiyası təmsil edir. O, eyni zamanda qəbul edən tərəfin təşkilat komitəsinə də başçılıq edir.

**Address:**
Azərbaycan Skautlar Assosiasiyası GSM: +994774517111

**Məlumat üçün:**

**Dünya Skautlar Hərəkatı Təşkilatı** – Dünyanın ən qabaqcıl gənclər hərəkatı olaraq 1907-ci ildə Lord Baden-Paul tərəfindən yaradılıb. Bu təşkilata üzv olan milyonlarla gənc, aktiv vətəndaş kimi cəmiyyətdə müsbət dəyişikliklərin edilməsində rol oynayırlar.

Dünya Skautlar Hərəkatı Təşkilatı özündə 165 Milli Skaut Təşkilatını və 40 milyon üzvü birləşdirir.

Rəsmi internet resursu: www.scout.org

**Azərbaycan Skautlar Assosasiyası –ASA-** Azərbaycan Respublikasının Gənclər Milli Assambleyasının üzvü olaraq 20 avqust 2000-ci ildən Dünya Skautlar Hərəkatının üzvüdür. ASA 11 oktyabr 1997-ci ilində yaradılıb. Azərbaycanın 16 regionunu əhatə edir və 1750 üzvü var.

Rəsmi sosial şəbəkə ünvanı: Azərbaycan Skautlar Assosiasiyası

Məlumat üçün: info@scout.az

**Dünya Skaut Gənclər Forumu** – Bu platforma 18-26 yaşlı gənc liderlər arasında ideya və ünsiyyət mübadiləsini həyata keçirir.

**Dünya Skaut Konfransı** – Skautlar Hərəkatının idarəedici və "dəqiq seçilmiş Assambleya" orqanıdır. Bu təşkilatda Dünya Skaut Təşkilatının üzv ölkələrin nümayəndələri təmsil olunur.

*Tədbirlər haqqında geniş və ətraflı məlumatı tədbirin rəsmi internet saytında www.wsc2017.az və ya Facebook səhifəsində ala bilərsiniz. - www.facebook.com/wsc2017.*